## Yaşıl dünya naminə həmrəylik ili

Bu gün dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Ölkəmiz də qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Kənd təsərrüfatı, su resursları, enerji, meşə, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır. Bu problemə qarşı mübarizədə diqqətin artması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 25 dekabr 2023-cü il tarixdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir. Dövlət başçısı tərəfdən 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi il ərzində bu sahədə fəaliyyətin genişləndiriləcəyindən və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin xeyli dərəcədə intensivləşəcəyindən xəbər verir.




Sərəncamda qeyd edildiyi kimi Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycan baza ili (1990) illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. İşğaldan azad olunmuş ərazilərin bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Ermənistan tərəfindən ekoloji terrora məruz qalan Azərbaycan əraziləri regional ekoloji fəlakət zonasına çevrilib. İşğal dövründə ərazilərdə sərvətlərimiz istismar olunub, talanıb. Məğlubiyyətlə barışa bilməyən ermənilər sona qədər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. Hal-hazırda işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyətin bərpası üçün kompleks tədbirlər görülür. Bu gün dövlətin prioritetlərindən biri həmin ərazilərimizin iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsidir.

Bu baxımdan, bərpaolunan enerji sahəsində təcrübəli, dünyanın aparıcı şirkətləri olan ACWA Power və Masdar şirkətləri ilə sazişlər imzalanmış, günəş və külək enerjisi stansiyalarının tikilməsi ilə bağlı sənədlər təsdiq olunmuşdur. Masdar şirkətinin investisiyası ilə 230 meqavat gücündə Qaradağ günəş elektrik stansiyası tikilərək istifadəyə verilib. Ölkəmizin bərpaolunan enerji potensialı - quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. 2021-ci il mayın 18-də Ağdam ictimaiyyət nümayəndələri ilə görüşən Prezident İlham Əliyev bəyan edib ki, bütün Qarabağ zonası “yaşıl enerji” zonası olacaq. Azərbaycanın

bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul edilən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş Milli Prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioriteti qarşıya yeni hədəflər qoyur. Azərbaycan dövləti bu sahədə ciddi addımlar atır və yaxın gələcəkdə bərpa olunan enerjisini və yaşıl hidrogeni Qara dənizin dibi ilə Avropaya ixrac olunmasını həyata keçirəcəkdir. Bu, həm də enerji istehsalında istifadə olunan qaza qənaət olunmasına yol açacaq və Avropaya ixrac imkanlarımızı genişləndirəcəkdir. Avropa Azərbaycandan daha çox təbii qaz aldıqca elektrik enerjisinin istehsalı üçün istifadə olunan kömürün yandırılmasını azaldacaq və atmosferə atlılan istilik effektli qazların azalmasına töhfə verəcəkdir.

Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir.



Azərbaycan Respublikasının ekoloji siyasətinin əsas mahiyyəti insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə dayanıqlı inkişafın təmin edilməsi, ətraf mühitə minimal zərərli təsir, onun ilkin vəziyyətinin bərpası və qorunmasından ibarətdir.

Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı", "Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" və digər proqramlar çərçivəsində tədbirlər həyata keçirilir.

Ətraf mühitin çirklənmə səviyyəsinin kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi və bununla bağlı operativ tədbirlərin görülməsi ətraf mühitin mühafizəsində əsas amildir. Bununla bağlı bütün ölkə boyu ətraf mühit komponentlərinin çirklənmə vəziyyəti üzərində daimi monitorinq nəzarəti sisteminin qurulması məqsədilə regionlarda ekoloji laboratoriyalar yaradılır.

Su ehtiyatlarından səmərəli istifadə, Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, müşahidə və monitorinq sistemlərinin modernləşdirilməsi, atmosfer havasının mühafizəsi, biomüxtəlifliyin qorunması, ekoturizmin və

akvakulturanın inkişafı, meşə örtüyünün, yaşıllıqların mühafizəsi və artırılması, çirklənmiş ərazilərin bərpası, torpaq ehtiyatlarının münbitliyinin artırılması, mineral-xammal bazasının genişləndirilməsi və təbii sərvətlərdən səmərəli istifadə, ekoloji təfəkkürün artırılması dövlətin ekoloji siyasətinin əsas prioritet istiqamətləridir.

Ölkədə yaşıllıqların payının artırılması istiqamətində də konkret addımlar atılır. 2011-ci il iyulun 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "İDEA" ("Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq" İctimai Birliyi) təşkilatı ətraf mühit məsələləri və fəaliyyyətlər barədə ictimayyəti maarifləndirir, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün realizə üsullarını tapır. Burada diqqətçəkən məsələ ondan ibarətdir ki, hər bir layihə gənc nəslin təşəbbüsü, iştirakı və rəhbərliyi ilə gerçəkləşir.




"İDEA" İctimai Birliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyəti ilə Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə aran rayonlarında, Bakıdan müxtəlif ərazilərə gedən avtomagistralların kənarlarında yeni meşə zolaqları salınmışdır. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb. "Hərəyə bir ağac əkək" layihəsi geniş yaşıllıq hərəkatına çevrilmişdir. Bu hərəkatın həyata keçirdiyi işlər nəticəsində münbit olmayan torpaqlar münbitləşmiş, yeni meşə zolaqlarını damcı üsulu ilə suvarılması təmin edilmiş, torpaqların eroziyasının qarşısı alınmışdır. Bundan əlavə, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkəmizin bir çox rayon və şəhərlərində ağacəkmə aksiyasları keçirilir.

30 il ərzində torpaqlarımızda, meşələrimizdə, Milli Park və Qoruqlarımızda ermənilər vandallıq aktları törədib. Bəsitçay və Qaragöl Dövlət Qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı Dövlət Təbiət Yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri məhv edilib. Ümumi sahəsi 8 min hektardan çox olan palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc və qozdan ibarət qiymətli və çoxillik sıx meşələrdən ibarət bənzərsiz bir ekosistemin məhv edilməsi endemik biomüxtəlifliyə ən ağır zərbə olub. Bununla da Ermənistan qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaları pozub. Belə ki, flora və faunanın ən qiymətli növləri ilə zəngin olan Qarabağ meşələri qırılıb və xaricə daşınıb. Yaşıllıq zənginliyinə öyrəşmiş quşlar, heyvanlar bu yerlərdən didərgin düşüb. Ekoloji əhəmiyyətə malik bir çox göllər böyük antropogen təsirə məruz qalıb. Bu məsələdə ən vacib sayılan məqam isə Ermənistan ərazisindən gələn və Azərbaycanın içməli su mənbələrini formalaşdıran çayların kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilməsi olmuşdur. Təbiətin müvazinəti, balansı pozulub, torpağın erroziyası başlanıb.

İşğaldan azad edilmiş ərazilərdə ekovəziyyəti yenidən bərpa etmək üçün də mühüm addımlar atılmaqdadır. “Yaşıl dünya naminə həmrəylik ili” dövründə Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Əsas məsələlərdən biri azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması, düşmənin vandalizminə məruz qalmış zəngin meşələrin bərpa edilməsidir. “Ağıllı kənd”, “ağıllı şəhər” kimi müasir innovasiyalı layihələrin tətbiq edilməsi ekosistemə yeni yanaşmadır. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da davam etdirilməkdədir. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənərək təhlükəsiz vəziyyətə gətirilməkdədir.

Azərbaycanın həyata keçirdiyi ekoloji siyasətin məntiqi nəticəsidir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) 2024-cü ildə Bakıda keçiriləcək.

Bu ildə reallaşacaq COP29 çərçivəsində dünyada gedən proseslərə, o cümlədən iqlim, “yaşıl ideya”lar, “yaşıl proqram”la bağlı məsələlərə Azərbaycan platformasında baxılacaq və Azərbaycan təcrübəsi nümayiş olunacaqdır.

Dünya birliyinin bir daha Azərbaycanı bu mötəbər tədbirdə dəstəkləməsinin əsasında ölkəmizin qazandığı nüfuzu və etibarlı tərəfdaş kimi özünü təsdiq etməsi dayanır. Azərbaycan həm bərpaolunan enerji yaradır, həm də sürətlə yaşıllaşdırma işlərini davam etdirir. Ölkəmizdə keçiriləcək COP 29 beynəlxalq konfransda Azərbaycan iqlim dəyişmələri ilə mübarizəyə verdiyi töhfələrini əyani şəkildə dünya ictimaiyyətinə çatdıracaq və bütün dünyanı bu qlobal çağırışa həmrəylik göstərilməsində birləşdirəcəkdir. Eyni zamanda daim yeniliklərə imza atan Azərbaycan “Yaşıl dünya naminə həmrəylik ili”ndən irəli gələn vəzifə və öhdəlikləri layiqincə yerinə yetirəcək.